ğa, yeraltı keçidə pənah aparma-



**Rəfi Salmanoğlu**

## Qəm qapımı döyməyə gəldi

Çiçəklər dağların ətri, nazıdı,
Bulaq təbiətin xoş avazıdı,
Əsən meh hər yerdə məndən razıdı,
Qəm yenə qapımı döyməyə gəldi

Qəm hər gün çaşdırır fikirlərimi,
Mən qəmli yazıram şeirlərimi,
Mən qəmlə açıram çox səhərimi,
Qəm yenə qapımı döyməyə gəldi.

Rəfiyəm, neyləyim bu dərdə-sərə,
Döndərib ömrümü tamam zəhərə,
Gedim ziyarətə, ocağa, pirə,
Qəm yenə qapımı döyməyə gəldi!

## Ey Şuşa

Otuz il Şuşasız qaldı millətim,
Qan tökdü Şuşanı aldı millətim,
Tarixi zəfərlər çaldı millətim,
Yaxşı ki, qayıtdın mənə, ey Şuşa.

Ulu Vətənimin şöhrətisən sən,
Musiqi beşiyi, sərvətisən sən,
Bütün zamanların heyrətisən sən,
Yaxşı ki, qayıtdın mənə, ey Şuşa.

Vaqifim, Zakirim səndə uyuyur,
Natəvan şeirim səndə uyuyur,
Çox açılmaz sirrim səndə uyuyur,
Yaxşı ki, qayıtdın mənə, ey Şuşa.

## Yollar

Çiçəkli dağları könlüm istəyir,
Məni o dağlara apara yollar,
Gözümə zirvənin qartalı dəyir,
Məni o dağlara apara yollar.

Dağlarsız nə qədər sıxılmışam mən,
Dağlarsız büdrəyib-yıxılmışam mən,
Dağlarsız yanmışam,
yaxılmışam mən,
Məni o dağlara apara yollar.

Laləli yamaclar yoluma çıxa,
Yenə başım üstə şimşəklər çaxa,
Hər yandan üstümə leysanlar axa,
Məni o dağlara apara yollar.

Yol boyu qoşulam dumana, çənə,
Hər yandan cığırlar yoluma enə,
Nəğməli bulaqlar oxuya, dinə,
Məni o dağlara apara yollar.

Cığırlar könlümü çəkə özünə,
Baxam o dağlarda göylər üzünə,
Qayalar öyrədə məni dözümə,
Məni o dağlara apara yollar
Heykəl qayalardan dözüm öyrənəm,
Dola çiçəklərin ətri ilə sinəm,
Rəfiyəm, dağlardan şeirlə dönəm,
Məni o dağlara apara yollar.

Türküstan.- 2023.- 30 iyun-3 iyul.- S.13.